

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 6 aprel 2022-ci il №26 (2637) https://mod.gov.az Qiymәti 30 qәpik


*Döyüş hazırlığı*

## “Təlimlərdə qazandığımız təcrübəni döyüşlərdə uğurla tətbiq etdik”



***2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən haqq savaşında qazanılan qələbədən sonra da ordu quruculuğu istiqamətində aparılan islahatlarla hərbi qüdrətimiz artmaqdadır. Belə ki, aparıcı qoşun növlərinin müasir tələblərə uyğunlaşdırılması, şəxsi heyətin döyüş vərdişlərinin daha da təkmilləşdirilməsi, yeni silah və texnikaların arsenalımıza qəbul edilməsi prosesi davamlı şəkildə həyata keçirilir. Dövlət başçısının ordu rəhbərliyi qarşısında qoyduğu konkret tapşırıqlara əsasən, keçirilən müxtəlif miqyaslı təlimlərdə iştirak edən şəxsi heyətin döyüş hazırlığı artmaqla yanaşı, hərbi təlim fəaliyyətlərinin təşkili sayəsində qazanılan uğurlarla rəşadətli ordumuzun peşəkarlığı daha da yüksəlir. Bunun nəticəsidir ki, bu gün tarixi ərazilərimizdə üçrəngli bayrağımız dalğalanır.***

İkinci Qarabağ müharibəsində düşmənə sarsıdıcı zərbələr vuran hərbi hissələrdən birindəyik. Zabit Namiq Səfərov Vətən müharibəsində iştirak edən tank heyətləri ilə bizi tanış etdi. “Tankçı olmaq insandan polad iradə və yüksək təcrübə tələb edir. Belə bir deyim var: “Tank bizim dəmir evimiz, biz isə bu evin doğma sakinləriyik”. Bunun üçün də hər bir tankçı öz silahdaşı ilə möhkəm yoldaşlıq bağları qurmalı, hər kəs özündən savayı kürəyini söykədiyi silahdaşına arxayın olmalıdır. Tankçını yenilməz edən amillərdən biri də məhz budur. Gördüyünüz tank heyəti də arxayınlıqla kürəyini silahdaşına söykəyir. Çünki hər biri peşəsinin sirlərini dərindən mənimsəmiş hərbi qulluqçulardır. Onu da qeyd etmək istərdim ki, tabeliyimdə xidmət edən şəxsi heyət məşğələ və təlimlərdə yüksək nəticələr göstərir. Müasir silahlar, idarəetmə cihazları və müşahidə vasitələri ilə təchiz edilmiş döyüş maşınlarımızdan istifadə edən tank heyətləri öyrəndikləri müasir döyüşaparma üsullarını müxtəlif miqyaslı təlimlərdə uğurla tətbiq edirlər. Heyət illik döyüş hazırlığı göstəricilərinə görə hərbi birlik rəhbərliyi tərəfindən yüksək qiymətləndirilib. Onlar müxtəlif mükafatlar və fəxri fərmanlarla təltif ediliblər", - deyə zabit bildirdi.

Növbəti həmsöhbətim gizir Elməddin Əbilov qeyd etdi ki, bir əsgəri güclü edən onun silahı ilə bərabər, qələbə əzmi və döyüş ruhudur. 44 günlük Vətən müharibəsində Azərbaycan əsgəri bunu bütün dünyaya nümayiş etdirdi. "Qışın soyuğunda da, yayın istisində də müxtəlif qoşun növləri ilə birlikdə təlim sahələrində olmuşuq, qarşıya qoyulan tapşırıqları uğurla icra etmişik. Ən çətin, ekstremal şəraitdə sınaqdan üzüağ çıxmağı bacarmışıq”.

Elməddin Vətən müharibəsi ilə bağlı xatirələrini qürurla, o anları yenidən yaşayaraq bölüşdü. "2020-ci il 27 sentyabr... Təlimlərdə tökdüyümüz tər döyüşdə zəfərlə yekunlaşmalıydı. Həmin gün adi günlərdən biri kimi başlasa da, tariximizdə əbədiləşən günün başlanğıcı oldu. Qazanılan uğurlarımızda əsas pay sahibi olan komandirlərimizlə çiyin-çiyinə döyüşmək arzumuz çin olmuşdu. Onlar bizi bu günlərə hazırlamış, bizlərsə Qələbəyə and içmişdik. Andımıza sadiq olduq.

**(Ardı 4-cü səhifədə)**



Naxçıvanda komanda-qərargah təlimi keçirilir

2-ci səhifədə



Şəhidlərin xatirəsinə həsr olunan anım mərasimləri keçirildi

3-cü səhifədə



“Bayrağımız uca, yolumuz açıq olsun!”

5-ci səhifədə



MOİK-in zabiti Rafiq Hüseynov üçqat Avropa çempionu olub

8-ci səhifədə

# Naxçıvanda komanda-qərargah təlimi keçirilir

*Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, "Naxçıvan Qarnizonu Qoşunlarının 2022-ci tədris ilinə uzlaşma planı"na əsasən komanda-qərargah təlimi keçirilir.*



Komanda-qərargah təliminin ssenarisinə uyğun olaraq müxtəlif döyüşə hazırolma dərəcələrinə gətirilən Naxçıvan Qarnizonu Qoşunlarının birləşmə və hissələri "Həyəcan" siqnalı ilə qaldırıldı.

Təlimdə komandir heyətinin yaranmış taktiki şəraitə uyğun qısa müddətdə qərar qəbul edib aktiv radioelektron mübarizə şəraitində yuxarı qərargaha məruzə etməsinə, tabelikdə olanlara çatdırmasına, döyüşün təşkili üzrə bacarıq və vərdişlərinin təkmilləşdirilməsinə xüsusi diqqət yetirildi.





Çətin keçilə bilən dağlıq ərazilərdə aşkar edilən şərti düşmənin terror qruplaşmaları xüsusi həmlə qruplarımız tərəfindən dronların və pilotsuz uçuş aparatlarının dəstəyi ilə məhv edilib, hakim yüksəkliklər ələ keçirildi.

Tank təhlükəli istiqamətlərdə açılma hədlərini tutan tank əleyhinə bölmələrimiz tərəfindən düzünə və yarımdüzünə tuşlama ilə şərti düşmənin zirehli texnikaları məhv edildi.

Aviasiya ilə qarşılıqlı əlaqə suallarının işlənildiyi təlimdə hava hücumundan müdafiə bölmələri şərti düşmənin hava hücum vasitələrinə və pilotsuz uçuş aparatlarına qarşı fəaliyyətləri icra etdilər.

Qərargahlar üçün əməliyyat şəraitinin daha da mürəkkəbləşdirilməsi məqsədilə əlavə qüvvələrin cəlb edildiyi komanda-qərargah təlimi davam edir.

**Nəriman NƏCƏFOV**
**Naxçıvan Muxtar Respublikası**

## Azərbaycan Respublikası Hərbi Prokurorluğunun mətbuat xidmətinin məlumatı

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə hərbi və siyasi-diplomatik yolla 30 ilə yaxın müddətdə işğal altında olan tarixi torpaqlarımız azad olunub.

Hərbi Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikası Hərbi Prokurorluğu tərəfindən, Dövlət Təhlükəsizliyi Xidmətinin, Əsir və İtkin Düşmüş, Girov Götürülmüş Vətəndaşlarla Əlaqədar Dövlət Komissiyasının, Beynəlxalq Qızıl Xaç Komitəsinin və digər müvafiq qurumların nümayəndələri ilə birlikdə Şuşa rayonunun Daşaltı kəndi, Xocavənd rayonunun Edilli kəndi, Ağdam rayonunun Sırxavənd kəndi, eləcə də Xocalı rayonunun Fərrux kəndi və digər ərazilərdə aparılmış müvafiq axtarış tədbirləri nəticəsində aşkar edilmiş kütləvi məzarlıqlardan Birinci Qarabağ müharibəsi dövründə itkin düşmüş şəxslərə məxsus olması ehtimal olunan xeyli sayda insan meyitinin qalıqları ekshumasiya edilib, həmin meyit qalıqları ilə bağlı məhkəmə-tibbi və molekulyar-genetik ekspertizaları təyin edilərək icraya yönəldilmiş və digər zəruri hərəkətlər yerinə yetirilib.

Ermənistan Respublikasının Silahlı Qüvvələri və qanunsuz erməni silahlı birləşmələri tərəfindən xalqımıza qarşı törədilmiş sülh və insanlıq əleyhinə olan, müharibə, terrorçuluq, qəsdən adam öldürmə və digər cinayət faktları ilə bağlı Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə istintaq olunan cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

## "Azərbaycan Ermənistanla danışıqlarda hər zaman açıq siyasət həyata keçirir"

Prezident İlham Əliyev 30 illik işğala son qoyulandan və üçtərəfli Bəyanat imzalandıqdan qısa müddət sonra tarixin bu səhifəsinin üzərindən keçməyin vacibliyini və Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması istiqamətində ciddi addımlar atmağa hazır olduğunu bəyan edib. Ona görə də Azərbaycan Ermənistanla sülh müqaviləsi ilə bağlı təkliflərini irəli sürüb.

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə müsahibəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov deyib.

"Ermənistan ötən bir il ərzində bu məsələ ilə bağlı Azərbaycanın addımlarına adekvat cavab verməyib. Bu il fevralın 21-də Azərbaycan tərəfi Ermənistana daha spesifik və konkret sənəd göndərib ki, bu sənəd iki dövlət arasındakı münasibətlərin normallaşmasını nəzərdə tutan beş təməl prinsipi özündə ehtiva edir. Dövlətimizin təklif etdiyi prinsiplər beynəlxalq hüququ əsaslanır və Azərbaycan tərəfi bu barədə ictimaiyyətə geniş məlumat verib. Yəni, biz bu addımla xoş niyyətimizi növbəti dəfə nümayiş etdirmişik. Ermənistan tərəfindən isə həmin təkliflərə tam uyğun olmasa da, ümumi xarakterli cavab verilib. Bizim gözləntimiz isə bir qədər fərqlidir. Onu da qeyd etmək lazımdır ki, bir neçə gündür Ermənistanın yüksək səviyyəli rəsmiləri tərəfindən bu istiqamətdə müsbət mesajlar alırıq. Tərəflər arasında olan əlaqələr normasını ümumilikdə müsbət dəyərləndiririk", - deyə nazir qeyd edib.

*Medallı igidlərimiz*

## "Vətənə, xalqa xidmət əsl vətənpərvərlikdir"



***2020-ci ilin 27 sentyabrında erməni hərbi birləşmələrinin təxribatının qarşısını almaq üçün döyüşə atılan Vətən övladları xalqımıza Böyük Qələbə sevincini yaşatdılar. Rəşadətli ordumuz Ali Baş Komandanın sərkərdəliyi ilə döyüş meydanında igidlik, mərdlik və vətənpərvərlik nümunəsi göstərdi. Hərbçilərimiz qəhrəmanlıqları ilə tarix yazdılar. Yazılanı poz maq olmaz deyiblər. Tarix pozulmadığı kimi, tarix yazanlar da unudulmayacaq. Kapitan Nahid Xanəliyev kimi...***

Xanəliyev Nahid Ərzuman oğlu Salyan rayonunda anadan olub. Hələ orta məktəbdə oxuyanda Azərbaycanın hərb tarixi, sərkərdələrin həyatları və döyüş yolları ilə maraqlanıb. Tarix boyu erməni xəyanətkarlığı ilə qarşılaşan xalqımızın yaşadığı faciələrdən xəbərdar olan Nahid qəhrəman oğulların davamçısı olacağına söz verib. Beləliklə, məktəbi bitirdikdən sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. Hərbi məktəbi 2013-cü ildə bitirib. Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində zabit təkmilləşdirmə kursunu müvəffəqiyyətlə başa vurub. Həmin gün onun həyatının dönüş nöqtəsinə çevrilib.

"Vətənə, xalqa xidmət əsl vətənpərvərlikdir", - deyərək söhbətə başlayan zabit döyüş yolundan danışdı: "Azərbaycan xalqı Vətənini sevən, tarixi dəyərlərə bağlı insanlarla zəngindir. Hər birimiz Vətəni anamız, müqəddəs qibləgahımız bilirik. Tarix boyu oğullarımız Vətən uğrunda son damla qanlarına qədər vuruşublar. 2020-ci ilin 27 sentyabrında olduğu kimi. Düşmən təxribatının qarşısını almaq üçün Ali Baş Komandanın əmri ilə döyüşə atıldıq. İllərdir gözlədiyimiz əmri yüksək əhval-ruhiyyə ilə yerinə yetirdik. Ali hərbi məktəbdə, təlim və məşqlərdə qazandığımız bilik və bacarıqları döyüş meydanında müvəffəqiyyətlə tətbiq etdik. Düşməni darmadağın edərək əzəli torpaqlarımızdan qovduq. Əməliyyatlar zamanı düşmənin xeyli sayda canlı qüvvəsini və texnikasını məhv etdik. Hərbçi olmağımla hər zaman qürur duyurdum. Vətən müharibəsinin iştirakçısı və qalib ordunun hərbi qulluqçusu olaraq azad olunan torpaqlarımıza ilk ayaq basanlardan olduğum üçün ikiqat qürurluyam. Çox sevinirəm ki, 30 ilə yaxın işğalda olan doğma torpaqlarımızı azad edib, xalqımıza qələbə sevincini yaşatdıq".

Şərəfli döyüş yolu keçən zabit Nahid Xanəliyev Vətən müharibəsindən sonra torpaqlarımızın ərazi bütövlüyünün təmin edilməsi uğrunda gedən döyüş əməliyyatlarında iştirak etdiyinə və tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və 3-cü dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalları ilə təltif edilib. İki övlad atası olan zabitimizin timsalında tarixi ədaləti bərpa edən bütün igidlərimizə minnətdarıq. Bu haqq savaşında şəhid olanların ruhunu hər zaman ehtiramla anır, qazilərimizə şəfa diləyirik.

**Leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**

# Şəhidlərin xatirəsinə həsr olunan anım mərasimləri keçirildi

*Aprel döyüşləri zamanı qoşunların təmas xəttində Ermənistan silahlı bölmələrinin hücumunu dəf edərkən şəhid olan pilotlar - mayor Urfan Vəlizadə, mayor Təbriz Musazadə və baş leytenant Əbu-Bəkir İsmayılovun anım günü münasibətilə tədbir keçirildi.*



İkinci Şəhidlər xiyabanında keçirilən tədbirdə Müdafiə Nazirliyinin əməkdaşları, ictimaiyyət nümayəndələri, şəhidlərin ailə üzvləri və döyüş yoldaşları onların məzarlarını ziyarət edərək önünə əklil və gül dəstələri düzdülər, xatirələrini yad etdilər.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Mərasimdə çıxış edənlər şəhidlərimizin şərəfli həyat və xidmət yolundan, onların vətənpərvərliyindən, 2016-cı ilin Aprel döyüşlərində, eləcə də Vətən müharibəsində erməni işğalçılarının cəbhədə törətdikləri təxribatlara Azərbaycan Ordusunun verdiyi layiqli cavabdan, hərbçilərimizin döyüş meydanında göstərdiyi şücaətdən və qəhrəmanlıqlardan, tarixi torpaqlarımızın düşmən işğalından azad olunmasından danışdılar.

Şəhidlərin ailə üzvləri, yaxınları göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına və Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlıqlarını bildirdilər.



* * *

Vətən müharibəsi zamanı aparılan döyüş əməliyyatlarında şücaət və igidlik göstərərək şəhidlik zirvəsinə yüksələn əsgər Teymur Həsənovun xatirəsinə həsr olunan anım mərasimi keçirildi.

Mərasimdə Müdafiə Nazirliyinin bir qrup hərbi qulluqçusu, Yasamal və Nəsimi rayon İcra hakimiyyətlərinin əməkdaşları, ictimaiyyətin nümayəndələri, şəhidlərin ailə üzvləri, dostları, eləcə də döyüş yoldaşları iştirak etdilər.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin, eləcə də Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Hərbi orkestrin ifasında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Çıxış edənlər şəhid Teymur Həsənovun həyatından, Vətən müharibəsində göstərdiyi şücaətdən və şəhidlərimizin canı bahasına əldə olunan qələbədən danışdılar. Bildirdilər ki, məhz onların qorxmazlığı nəticəsində cəmi 44 gün ərzində işğalçılığa son qoyuldu. Düşmən ordusu məhv edildi. Gücümüz qarşısında aciz və çıxılmaz vəziyyətdə qalan xain erməni əsgəri döyüş meydanından qaçmaqdan başqa yol tapa bilmədi. Cəsur oğullarımız mətin addımlarla düşmən üzərinə irəliləyib doğma Qarabağımızı gerçək sahibinə qovuşdurdular.

Sonda şəhidin ailə üzvləri və yaxınları şəhidlərimizin xatirəsinin hər zaman uca tutulduğunu vurğulayaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildirdilər.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**



# Əlahiddə Ümumqoşun Orduda gənc əsgərlər növbəti xidmət yerlərinə yola salınıblar





*Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Əlahiddə Ümumqoşun Orduda ixtisas hazırlığı kurslarını başa çatan gənc əsgərlər növbəti xidmət yerlərinə yola salınıblar.*

Mərasimdə əvvəlcə şəhidlərimizin əziz xatirəsi yad edilib və Dövlət Himnimiz səsləndirilib.

Polkovnik Mübariz Rzayev Vətən müharibəsində qazanılan təcrübə ilə keçirilən məşğələlərdə peşəkarlaşan gənc əsgərlərə xidmətlərində uğurlar arzulayıb.

Əsgər valideyni Qasım Bağırov övladının hərbi xidmət keçməyi ilə fəxr etdiyini bildirərək kursları uğurla başa vuran əsgərləri təbrik edib.

Əsgərlər adından çıxış edən Nicat Məmmədov bildirib ki, ordu sıralarına daxil olan ilk gündən nümunəvi xidmət etməyi qarşısına məqsəd qoymuş hər bir gənc üçün rəşadətli Azərbaycan Ordusunda xidmət etmək müqəddəs bir amala çevrilib.

General-mayor Rəhim Cəfərov Əlahiddə Ümumqoşun Ordu komandanı general-polkovnik Kərəm Mustafayevin təbrikini şəxsi heyətə çatdıraraq bildirib ki, ordu sıralarına daxil olan gənclərimiz dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunur, məşğələlərdə peşəkar hərbi qulluqçu kimi yetişir və növbəti xidmət yerlərində uğurlu döyüş növbətçiliyinin təşkilində fəal iştirak edirlər. İnanırıq ki, gənc əsgərlərimiz məşğələlərdə qazandıqlarını növbəti xidmət yerlərində keçiriləcək təlimlərdə daha da təkmilləşdirəcək, Vətənimizin müdafiəsində ayıq-sayıq dayanacaqlar.

Çıxışların ardından gənc əsgərlər müxtəlif hərbi ixtisaslar üzrə qazandıqları bilik və bacarıqları nümayiş etdiriblər.

## Müdafiə Nazirliyi: İstifadəyə yararsız döyüş sursatlarının Seyfəli poliqonunda utilizasiyası davam etdirilir

Azərbaycan Ordusunun bölmələri tərəfindən istismar müddəti başa çatmış və istifadəyə yararsız olan döyüş sursatlarının təhlükəsizlik tədbirlərinə əməl olunmaqla planlı şəkildə utilizasiyası davam etdirilir.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən məlumat verilib.

Bildirilir ki, döyüş sursatlarının utilizasiya prosesi aprelin 4-dən 9-dək Seyfəli poliqonunda həyata keçiriləcək.

Aparılan partlayış işləri ilə əlaqədar ictimaiyyətə mütəmadi məlumat veriləcək.

## Raket və artilleriya bölmələrində atəş tapşırıqları yerinə yetirilib



Müdafiə nazirinin təsdiq etdiyi 2022-ci il döyüş hazırlığı planına uyğun olaraq, Quru Qoşunlarının raket və artilleriya bölmələrində yaylım atəşli reaktiv sistemlərdən atəş tapşırıqları yerinə yetirilib. Plana əsasən atəş dəstəyi həyata keçirəcək bölmələr daimi dislokasiya məntəqələrindən cəmləşmə rayonlarına çıxarılaraq ehtiyat atəş və start mövqelərini tutublar.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, real döyüş şəraitinə uyğun keçirilən təlimdə heyətlər şərti düşmən hədəflərinin aşkar olunaraq sərrast atəşlə məhv edilməsi üzrə qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetiriblər.

Təlimin keçirilməsində əsas məqsəd Vətən müharibəsində əldə edilən təcrübə nəzərə alınmaqla raket və artilleriya bölmələrinin idarəedilməsi vərdişlərinin təkmilləşdirilməsi, hərbi qulluqçuların bilik və bacarıqlarının artırılması, döyüş əməliyyatları zamanı fəaliyyətlərin planlaşdırılması və digər qoşun növləri ilə qarşılıqlı əlaqənin təşkilidir.

## "Təlimlərdə qazandığımız təcrübəni döyüşlərdə uğurla tətbiq etdik"



(Əvvəli 1-ci səhifədə)

Əsl qəhrəmanlıq nümunəsi göstərərək Qələbəyə gedən yola dəmirdən atlarımızla iz saldıq.

...Qısa vaxt ərzində düşmən tərəfindən bizə təhdid gələ biləcəyi ehtimal olunan ərazidə atəş mövqeyimizi tutduq, növbəti komandaları gözlədik. Digər bölmələr tərəfindən zəruri tədbirlər həyata keçirildikdən sonra düşmən istehkamlarını məhv etmək tapşırığını aldıq. Tapşırıqlar uğurla yerinə yetirildikcə, ordumuz irəlilədikcə, düşmən silahını atıb qaçırdı. Gün keçdikcə Böyük Qələbəyə daha da yaxınlaşırdıq. Cəsur qardaşlarımızın müxtəlif cəbhələrdə qazandığı uğurları eşitdikcə qəlbimizdəki Vətən yanğısı qələbə əzmimizi daha da gücləndirirdi.

Azərbaycan əsgəri xalqımızın qəlbində olan Vətən nisgilinə son qoymaq üçün vaxtından-vədəsindən, iqlim şəraitindən, ərazinin relyefindən asılı olmayaraq mətin addımlarla daim irəli gedirdi. İşğalçılar igid oğulların şücaəti, igidliyi qarşısında tab gətirə bilmədi. Sonda düşmənin təslim olmaqdan başqa çıxış yolu qalmadı ki, bu da gözlənilən idi. Ədaləti bərpa etmək, xeyrin şər üzərində qələbəsini təmin etmək mütləq idi. Qazanılan qələbədə payı olan şəhidlərimizi və qazilərimizi daim uca tutmalıyıq. Onlar bu Vətən torpaqlarını canı bahasına azad etməklə tarixi salnaməni əbədiləşdirdilər. Onların sayəsində dünya vətənpərvərlik hissinin nə qədər güclü olduğunu gördü. Vətən sevgimiz, qələbə əzmimiz qarşısında düşmən tab gətirə bilmədi". Bir sözlə, Böyük Qələbə igidliyin, vətənpərvərliyin, xalq birliyinin əsəri oldu.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Kərəm İbrahimov bildirdi ki, qazanılan böyük Qələbə bizə onu deməyə əsas verir ki, Azərbaycan Ordusu həm peşəkarlıq, həm döyüş qabiliyyəti, həm də müasir tələblərə cavab verən arsenalı ilə düşmən üzərində əzmli qələbə qazandı. "Tank heyətimiz təlim-məşqlərdə qazandığı təcrübələri döyüşlərdə uğurla tətbiq etdi. Cəbhənin müxtəlif istiqamətlərində qarşıya qoyulan tapşırıqların öhdəsindən uğurla gəlməyi bacardı. Bölməmiz verilən koordinatlara və istiqamətlərə əsasən düşmənin yerüstü hədəflərini, manеələrini uğurla məhv etdi.

İkinci Qarabağ müharibəsi zamanı hamı Vətən torpaqlarını yağı düşməndən azad etmək istəyi ilə coşub-daşırdı. Təcrübəli komandirlərin sayəsində xidmətimizi bu gün də müasir tələblər çərçivəsində təşkil edirik. 2020-ci il sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsində düşmən üzərində qazanılan Qələbəmiz qədirbilən xalqımızın, Ali Baş Komandanımızın və şanlı ordumuzun sayəsində mümkün oldu. Bu gün də xalqın inamından, Ali Baş Komandanın diqqət və qayğısından güc alırıq. Dünya Azərbaycan Ordusunun gücünü gördü və gördü ki, xalqın Vətən sevgisi, tarixi yurdunu işğaldan azad etmək istəyi qarşısında heç bir qüvvə maneə ola bilməzlər".

**Baş leytenant**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

## Azad edilmiş ərazilərdə artilleriyaçılarımızın bir günü

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, azad edilmiş ərazilərimizdə bütün sahələrdə bərpa-quruculuq və tikinti işləri davam edir. Burada dislokasiya olunmuş bölmələrin xidməti-döyüş fəaliyyətinin təşkili, hərtərəfli təminatı və sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı qarşıda duran tapşırıqlar planlı şəkildə icra olunur.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, çətin relyefli və sərt iqlim şəraitli ərazilərdə gecə və gündüz fasiləsiz xidmət aparan şəxsi heyətin döyüş qabiliyyətinin daha da artırılması, döyüşə hazırolma vəziyyətinin yüksək səviyyədə saxlanılması üçün müasir tipli hərbi infrastruktur obyektləri inşa edilir, eləcə də digər zəruri tədbirlər həyata keçirilir.

Yeni yaradılmış mövqelərdə, yerləşmə məntəqələrində və hərbi şəhərciklərdə döyüş növbətçiliyi aparan şəxsi heyətin rahat xidmət aparmasını təmin etmək üçün yataq ləvazimatları, müasir mebellər, mətbəx avadanlıqları, ehtiyat qida və əmlakın saxlanması üçün anbarlar, rahat yataqxanalar, xidməti otaqlar, sanitar qovşaqlar, həmçinin tibb məntəqələri və digər obyektlər mövcuddur. Bütün şəhərciklər və modul tipli yerləşmə məntəqələri mərkəzləşdirilmiş istilik sistemi, işıq, su və dayanıqlı rabitə, həmçinin fasiləsiz elektrik enerjisinin təminatı üçün generatorlarla təchiz olunub.

Hərbi qulluqçularımızın mövsümə uyğun geyimlə, təzə və yüksək kalorili isti qida ilə fasiləsiz təmin olunması, eləcə də sosial-məişət şəraiti və qoşun xidmətinin yüksək səviyyədə təşkil edilməsi istiqamətində tədbirlər plana uyğun olaraq həyata keçirilir.



Azad edilmiş ərazilərimizdə il ərzində hərbi qulluqçuların normalara əsasən ərzaq, əşya-əmlak və geyimlə təmin edilməsi maddi-texniki təminat xidməti tərəfindən daima nəzarətdə saxlanılır.

Müdafiə Nazirliyinin müvafiq qurumlarının vəzifəli şəxsləri daima hərbi hissələrdə olur, şəxsi heyətin qayğı və müraciətləri ilə maraqlanır, qaldırılan məsələlərin həlli üçün müvafiq tədbirlər görürlər.

Günün nizam qaydalarına uyğun döyüş növbətçiliyi və qoşun xidməti təşkil edilir, döyüş hazırlığının yüksək səviyyədə saxlanması üçün bölmələrin şəxsi heyəti ilə gündəlik döyüş hazırlığı məşğələləri, ictimai-siyasi və hüquq hazırlığı üzrə dərslər keçirilir.

Məşğələlərdə şəxsi heyət tərəfindən silahların taktiki-texniki xüsusiyyətləri mənimsənilir və onların döyüşdə səmərəli tətbiqi üzrə praktiki vərdişlərinin təkmilləşdirilməsi məqsədilə məşqlər icra olunur.

Yüksək əhval-ruhiyyədə Vətənin keşiyində dayanan Azərbaycan Ordusunun şəxsi heyəti torpaqlarımızın müdafiəsi naminə Ali Baş Komandanın hər bir əmrinə daim hazırdır.

## Ordumuzun mövqeləri atəşə tutulub

Aprelin 3-ü saat 23:00-da Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Tovuzqala rayonunun Müsürskənd yaşayış məntəqəsində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Tovuz rayonunun Ağdam yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atəşə tutub.

Bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb.

Ordumuzun sıralarında şəxsi heyət və texnika baxımından itki yoxdur.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# “Bayrağımız uca, yolumuz açıq olsun!”



"N" hərbi hissəsində Aprel zəfərinin ildönümü münasibətilə tədbir keçirildi. Tədbirdə hərbi hissənin şəxsi heyəti ilə yanaşı, məktəblilər, şəhid ailələri, rayon ictimaiyyətinin nümayəndələri iştirak etdilər. Tədbirdə əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin, Vətənimizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Tədbir açıq elan edildikdən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Aprel döyüşləri haqqında çıxışlarında dediyi “Aprel döyüşləri bizim şanlı tariximizdir. Aprel döyüşləri bir daha Azərbaycanın qüdrətini göstərdi, ordumuzun gücünü göstərdi" fikirləri səsləndirildi.

Aprel döyüşlərinin və Vətən müharibəsinin iştirakçısı polkovnik İlqar Abdulxalıqov çıxış edərək Aprel döyüşlərindən və ordumuzun qazandığı şanlı qələbədən danışdı. Tədbir iştirakçılarını Aprel zəfərinin ildönümü münasibətilə təbrik edərək, şəxsi heyətə çətin, amma şərəfli xidmətlərində uğurlar arzuladı. "2016-cı il aprelin ilk günlərində Ermənistan silahlı qüvvələrinin cəbhə boyu başlatdığı təxribatın qarşısını almaq üçün ordumuz əks-hücum əməliyyatına başladı. Cənab Ali Baş Komandanın rəhbərliyi altında ordumuz düşmən qüvvələrinə ağır zərbələr endirərək, işğal altında olan Lələtəpə və bir neçə mühüm strateji əhəmiyyətə malik olan yüksəklikləri, minlərlə hektar ərazini azad etdi. Bu döyüşlərdə qazandığımız tarixi qələbə yaratdığı uydurma mifi dağıdaraq, Azərbaycan dövlətinin qüdrətini, iqtisadi gücünü, Azərbaycan əsgərinin igidliyini, rəşadətini və yenilməzliyini bütün dünyaya göstərdi. 4 günlük müharibə kimi tarixə düşən Aprel döyüşlərində ordumuzun qazandığı şanlı qələbə Böyük Qələbəmizin başlanğıcı oldu. 2020-ci ildə baş tutan Vətən müharibəsində rəşadətli ordumuz Müzəffər Ali Baş Komandanın rəhbərliyi və siyasi iradəsi, xalqımızın dəstəyi ilə düşmən üzərində Böyük Qələbə qazanaraq ərazi bütövlüyümüzü təmin etdi. 30 ilə yaxın işğalda olan torpaqlarımızı azad edən ordumuz xalqına tarixi zəfər sevinci yaşatdı. İstər Aprel zəfəri, istərsə də Vətən müharibəsində ordumuzun qazandığı möhtəşəm qələbə dövlət, xalq, ordu birliyinin, Azərbaycan əsgərinin vətənpərvərliyinin, yüksək döyüş ruhunun qələbəsi oldu. Müasir dövlətimizin və qüdrətli ordumuzun banisi ulu öndər Heydər Əliyev siyasi kursunun uğurlu davamı olaraq cənab Prezidentimizin ordu quruculuğuna göstərdiyi yüksək diqqət və qayğısı nəticəsində Azərbaycan Ordusunun güclü maddi-texniki bazaya, ən müasir silah və texnikalara, savadlı hərbi kadrlara malik olduğunu biz döyüş meydanında qələbələrimizlə göstərdik. Bu müqəddəs amal uğrunda şəhid olan bütün soydaşlarımızın əziz xatirəsini dərin hörmətlə anırıq".

Çıxış edən kapitan Mustafa Əsgərli bildirdi ki, bu gün tariximizin qızıl səhifələrindən olan şanlı Aprel Zəfərinin 6-cı ildönümünü böyük qürur və fəxarət hissi ilə qeyd edirik. "Çıxışımı Müzəffər Ali Baş Komandan İlham Əliyevin sözləri ilə başlamaq istəyirəm: "Aprel döyüşləri dövlətimizin, ordumuzun gücünü, xalqımızın birliyini, vətənpərvərliyini nümayiş etdirdi". 6 il öncə Azərbaycanın ön xətt mövqeləri və yaşayış məntəqələrinin Ermənistan silahlı qüvvələri tərəfindən intensiv artilleriya atəşinə məruz qalması əks-həmlə əməliyyatını zərurətə çevirdi. Azərbaycan Ordusu Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəklikləri, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyini və Cocuq Mərcanlı kəndini, Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində bəzi mövqeləri düşməndən azad etdi. Bu, Ermənistanın işğal altındakı ərazilərdə qurduğu "keçilməz sədd" kimi təqdim edilən müdafiə xəttinin yarılması ilə nəticələnən strateji əhəmiyyətli qələbə idi. Aprel döyüşlərinin ən böyük nəticələrindən biri həm də bundan ibarət idi ki, hərbi-psixoloji üstünlük Azərbaycana keçdi. 1994-cü ildə imzalanmış atəşkəs sazişindən sonra formalaşmış təsəvvürlər alt-üst oldu. 2016-cı ilə kimi bir çoxları yeni müharibənin status-kvonu dəyişməyəcəyini düşünürdü. 2016-cı ilin aprelindən sonra 20 ildən çox bir müddətdə formalaşmış bu baxış əsaslı şəkildə dəyişdi.



Azərbaycan Ordusu döyüş meydanında nəyə qadir olduğunu göstərdi. Bu, həm Ermənistana, həm də onun himayədarlarına atəşkəsdən sonra vurulmuş ilk böyük psixoloji zərbə oldu. Aprel döyüşlərinin nəticələrini təhlil edərkən qeyd olunan məqamların hər biri ayrı-ayrılıqda 2020-ci ilin Vətən müharibəsində Azərbaycanın əldə etdiyi tarixi zəfərin sütunları kimi nəzərdən keçirilə bilər. Həmçinin Aprel döyüşlərinin geosiyasi aspektləri Azərbaycanın qazandığı qələbənin siyasi müstəvidə təsdiqinin ən vacib şərtlərindəndir. Məhz bu həssas, həm də son dərəcə vacib məqamı nəzərə alaraq "Nəyi, necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm" deyən dövlət başçımızın siyasi iradəsi Azərbaycan xalqına tarixi zəfər yaşatdı. Çıxışıma yekun vurarkən, canını bu torpaqların bütövlüyü kimi müqəddəs bir amal uğrunda qurban verən bütün soydaşlarımızın xatirəsini bir daha qürurla yad edirəm. Qazi və yaralılarımıza Allahdan şəfa diləyirəm. Bayrağımız uca, yolumuz açıq olsun!"

Əsgərlər adından çıxış edən əsgər Anar Müzəfferli qalib ordunun əsgəri olmaqdan qürur duyduğunu, silahdaşlarının qanı, canı bahasına təmin olunan ərazi bütövlüyümüzün keşiyində qətiyyətlə dayandıqlarını bildirdi. "Biz fəxr edirik ki, Azərbaycan əsgəriyik. Dövlətimizlə və ordumuzla qürur duyuruq. Aprel zəfəri, Vətən müharibəsi bizim şanlı zəfər tariximizdir. Bu döyüşlər zamanı silahdaşlarımızın göstərdiyi qəhrəmanlıqları hər birimiz həyat yolumuza nümunə bilirik. Biz Vətən qarşısında övladlıq borcunu layiqincə yerinə yetirib, nümunəvi xidmət edərək rəşadətli ordumuzun adına layiqli əsgərlər olmağı qarşımıza məqsəd qoymuşuq. Əsgəri xidmətimizi uğurla keçməyimiz üçün hərbi hissədə yaradılan yüksək sosial şəraitə görə Ali Baş Komandanımıza və Müdafiə Nazirliyinin rəhbərliyinə bütün əsgər yoldaşlarım adından təşəkkürümüzü bildiririk. Hər birimiz yüksək qələbə ruhunda xidmət edir, sərhədlərimizin keşiyində inamla dayanmışıq".

Sonra Vətən müharibəsində döyüş tapşırıqlarının icrası zamanı şücaət və şəxsi igidlik göstərdiyinə görə Azərbaycan Prezidentinin sərəncamı ilə təltif olunan bir qrup hərbi qulluqçuya medallar və növbəti hərbi rütbələr təqdim olundu.

Tədbir orta məktəb şagirdlərinin hərbi vətənpərvərlik ruhunda şeirlər səsləndirməsi ilə davam etdi.

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**

*Nümunəvi xidmət*

# İgidliyi ilə fəxr ediləsi ata

Vətən müharibəsində düşmən üzərində tarixi qələbənin qazanılmasında istehkamçıların da böyük əməyi oldu. Onlar döyüşlər zamanı üzərlərinə düşən bütün tapşırıqları bacarıqla yerinə yetirdilər. Yurdumuzun azadlığı uğrunda gedən döyüşlərdə "N" hərbi hissəsinin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Bayram Əliyev də igidlik göstərib. İkinci Qarabağ müharibəsinin başladığı ilk günlərdən döyüşlərə atılan əsgər vəzifəsinin öhdəsindən bacarıqla gəlib. Cəsarət və qorxmazlığı ilə həm komandirinin, həm də zabit və əsgər dostlarının rəğbətini qazanıb. Əməliyyatlar zamanı yaralanıb hospitala gətirilib, tibbi yardım göstərildən sonra yenidən döyüş tapşırıqlarını yerinə yetirib. Vətən müharibəsində göstərdiyi igidliyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Əliyev Bayram Əli oğlu "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medallarına layiq görülüb.

"N" hərbi hissəsində olarkən əsgər Bayram Əliyevlə görüşüb tanış olduq. Öyrəndik ki, Bayram Əliyev 1979-cu ildə Beyləqan rayonunun Xaçınstroy kəndində anadan olub. Orta təhsilini kəndlərindəki məktəbdə alıb. 1997-ci ildə Vətən qarşısındakı övladlıq borcunu yerinə yetirmək üçün ordu sıralarına yola düşüb. Əsgəri xidmətini cəbhə bölgəsində yerləşən hərbi hissədə yerinə yetirib. 1999-cu ildə hərbi xidmətdən qayıdan Bayram Əliyev 2014-cü ildən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətə başlayıb. 44 günlük Vətən müharibəsində iştirak edib.

- Erməni qəsbkarlarının mövqelərimiz üzərinə hücuma keçmələrini səhər tezdən eşitdik, - deyə əsgər Bayram Əliyev iştirakçısı olduğu döyüş əməliyyatlarından danışdı. - "Həyəcan" siqnalı ilə cəbhə bölgəsinə yola düşdük. Çox keçmədi ki, ön xəttə çatdıq. Yurdumuzun azadlığı uğrunda gərgin döyüşlər başladı. Döyüşlərə Füzuli rayonunun Alxanlı kəndi istiqamətindən başladıq. Biz istehkamçılar vuruşan qüvvələrin düşmən üzərinə təhlükəsiz getməsi üçün etibarlı keçidlər açmalıydıq. Vaxt itirmədən tapşıqları icra etmək üçün əməliyyata başladıq. Düşmən ordumuzun irəliləməsinin qarşısını almaq üçün əvvəlcədən dərin, keçilməz hesab olunan vallar qazmışdı. Texnikaları işə salıb güllə yağışı altında ordumuzun irəliləməsi üçün yol açır, qazılmış valları doldururduq.



Yaxşı bilirdik ki, qələbəyə gedən yollar başlanğıcını buradan götürəcək. Həyatımız üçün təhlükəli olsa da, düşməndən qorxmurduq. Çünki biz doğma Vətənimiz uğrunda vuruşurduq. Buna görə də heç nədən və heç kimdən çəkinmirdik. Ölümün gözünün içinə dik baxa-baxa, düşmənin mövqelərinə yol aça-aça irəliləyirdik. Torpaqlarımızın addım-addım işğalçılardan azad olunması qolumuza güc-qüvvət verirdi. Ordumuzun əkshücumları qarşısında dayana bilməyən ermənilər geri çəkilirdilər.

Ömrümüzün ən təhlükəli və ən şərəfli günlərini yaşayırdıq. Oktyabrın 27-də geriyə qaçan yağılar ayaq saxlayıb müqavimət göstərməyə başladılar, idarə etdiyim ekskavatoru vurdular. Atəş yaxından açıldığına görə texnika sıradan çıxdı, mərmidən ayrılan qəlpələr məndən də yan keçmədi. Həkimlər ilkin tibbi yardım göstərdikdən sonra məni hospitala çatdırdılar. Əməliyyat uzun çəkmədi. Həkimlər bədənimdən qəlpələri təmizlədilər. Bir gecə hospitalda qaldım. Səhər özümü yaxşı hiss etdiyimə görə mövqeyimizə qayıtdım. Yurdumuzun azadlığı uğrunda qanlı döyüşlər getdiyi bir vaxtda hospitalda yata bilməzdim. Geri döndüyümü görəndə əsgər dostlarım da sevindilər. Ehtiyatda olan ekskavatorla döyüş tapşırıqlarını yerinə yetirməyə davam etdim. Müharibənin son gününə qədər yurdumuzun azadlığı uğrunda vuruşanların sırasında oldum. Şükürlər olsun ki, Vətən müharibəsi qələbəmizlə başa çatdı. Şanlı ordumuz Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında uzun illərdən bəri erməni vandallarının işğalında qalmış torpaqlarımızı azad etdi. İkinci Qarabağ müharibəsindən doğmalarımızın yanına alnıaçıq, başıuca qayıtdıq. İndi həm özüm tam sağalmışam, həm də döyüşlər zamanı zədələnmiş hərbi texnika təmir olunub. Hər zaman Vətənin müdafiəsinə hazırıq.

Əsgər Bayram Əliyevin iki oğlu var. Övladları Röyal və Tural atalarının igidliyi ilə həmişə fəxr edəcəklər. Vətən müharibəsində böyük cəsarət göstərmiş Bayram Əliyev, doğrudan da fəxr ediləsi atadır, qorxmazlığı ilə öyünüləsi ailə başçısıdır.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# Aprel döyüşləri - əbədiləşən günün başlanğıcı

*...Tarixdə dəyərli, peşəsinə bağlı, eyni zamanda, istedadlı həkimlər az olmayıb. Yazıçı-həkim Anton Pavloviç Çexov deyib ki, həkim mütləq ictimai xadim və fəal mübariz olmalı, öz humanist fikirlərini, xeyirxah əməllərini sözlə ifadə etməyib, əhalinin sağlamlığı üçün yollar axtarmalı, fəaliyyət göstərməlidir. Rus cərrah Nikolay Piraqov isə məsələyə başqa prizmadan yanaşaraq həkimləri başqasının xoşbəxtliyi ilə xoşbəxt olanlar adlandırıb.*

*Müsahibim başqasının xoşbəxtliyi ilə xoşbəxt olan həkim, Vətəninə candan bağlı olan hərbçi - Müdafiə Nazirliyinin Baş Klinik Hospitalının Onkologiya bölməsinin rəisi tibb xidməti polkovnik-leytenantı İslam Məmmədovdur. O, Aprel döyüşlərinin hərbçi kimi iştirakçısı, həkim kimi döyüşənlərin sağlamlığının keşikçisi olub.*



**- Vətənə olan borc bitməz deyiblər. Siz həm həkim, həm də hərbçi kimi Vətən qarşısında övladlıq borcunuzu yerinə yetirirsiniz. Bu iki vacib sənəti bir ömürdə birləşdirmək çətin deyilmi?**

- Məsuliyyət, çətinlik insanı inkişaf etdirir. İnkişaf isə uğurların təməlidir. Həkim peşəsi ən nəcib və məsuliyyətli peşələrdən biridir. Ümummilli lider Heydər Əliyev deyirdi ki, "Səhiyyə sahəsində çalışan, öz həyatlarını tibb xidmətinə həsr edən insanlar çox şərəfli adamlardır. Onların hər biri çalışmalıdır ki, bu şərəfli adı daim yüksəklərə qaldırsın". Ümummilli lider Heydər Əliyev çıxışları zamanı həmişə hərb sənətini yüksək qiymətləndirib. "Vətəni qorumaq - öz ana torpağını, elini, obasını, yurdunu qorumaqdır. Vətənini qorumaq - öz namusunu, şərəfini qorumaqdır. Vətəni qorumaq - öz atasını, anasını, balalarını, övladlarını qorumaqdır. Vətəni qorumaq Azərbaycan xalqının tarixi mənəviyyatını, əsrlər boyu əldə etmiş milli mədəniyyətini, milli iftixarını qorumaqdır. Bu, şərəfli yoldur. Bu, şərəfli vəzifədir. Ona görə də nə qədər çətin olsa da, nə qədər ağır olsa da, siz bu yolla getməlisiniz".

İnsanların sağlamlığının keşiyində dayanmağı özünə həyat amalı bilən həkimlərimiz xəstələrinin qəlbində əbədi yaşamaqla bərabər, həm də sənət seçimində kimlərəsə təkan vermiş olurlar. Məndə də belə olub. Mən uşaq olanda anam bərk xəstələnmişdi. Onu müalicə edib sağaldan həkimin timsalında mənim tibb sənətinə böyük sevgim yarandı. Həkimin nurlu siması, səmimi, mehriban davranışı uzun müddət uşaqlıq düşüncələrimdə yer aldı və bu müqəddəs peşəni seçməyimə səbəb oldu. İnsanlara kömək etmək, sevdiklərinin ən çətin, ümidsiz anlarında əlindən tutub ayağa qaldıraraq yaxınlarına sağlam qaytarmaq istəyi məni bu sənətə gətirdi. Həmin istəklə, həmin sevgi ilə də 1991-ci ildə Azərbaycan Tibb Universitetinə daxil oldum. Universitetdə oxuduğum illərdə mənfur qonşularımızın tarixi torpaqlarımızı və mənə xüsusilə doğma olan Qubadlını işğal etməsi hərb sənətinə olan marağımı daha da artırdı. 1998-ci ildə Universiteti fərqlənmə diplomu ilə bitirdim, Əhmədbəyli hospitalında tibb xidməti leytenantı olaraq ümumi cərrah kimi xidmətə başladım. 24 illik xidmətim müddətində həmin sevgi daha da çoxaldı.

**- Hərbçi, yoxsa həkim? Könlünüzə hansı daha yaxındı?**

- Hər ikisi. Vətəndaşların sağlamlığı keşiyində dayanmaq mülki həkimlərin, hərbçilərin sağlamlığı keşiyində dayanmaq isə hərbi həkimlərin vəzifə borcudur. Bu borc həm də mənəvi borcdur. Torpaqlarımızı qoruyanlara xidmət daha müqəddəsdir, məncə.

Hərbi həkim olmaq ikiqat şərəfli və məsuliyyətlidir. Bilirsiniz, bir həkim olaraq son ümidini itirmək üzrə olan xəstənin gözlərindəki yaşam sevincinin sənə yaşatdığı xöşbəxtliyi heç nə ilə əvəz etmək mümkün deyil. Bunun üçün də daim inkişaf etməlisən.

**- Anladığım qədərilə o xoşbəxtliyi yaşamaq, yaşatmaq üçün daim axtarışda olmaq, inkişaf etmək lazımdır. Bütün sahələrdə bu gərəklidir. Həkimlikdə də...**

- Əlbəttə. Yoxsa cəmiyyətdə inkişaf mümkün deyil. Həkimlik daim öyrənməyi, təkmilləşməyi, müasir üsullar axtarmağı tələb edən bir peşədir. Həkim nə vaxtsa öyrəndiyi biliklərlə kifayətlənməməli, daim öz üzərində işləməlidir. Müasir dövrlə ayaqlaşmalı və səhiyyə inkişaf etdikcə özü də inkişaf etməlidir. Bu məqsədlə də ölkə daxilində və xaricində keçirilən bir çox konfranslarda iştirak etmişəm. Bu tədbirlər biz həkimlərin peşə hazırlığının formalaşmasına zəmin yaradır.

**- Görkəmli amerikan yazıçısı Mark Tven deyib ki, "Öyrənmək üçün səyahət etməlisən". Sizcə təhsil həm də dünyagörüşü ilə vəhdət təşkil etməlidir?**

Bir el məsəlində deyildiyi kimi, insan gəzdikcə, gördükcə daha əhatəli öyrənir. Mən orta məktəbi sovet dönəmində oxumuşam. Əla qiymətlərlə oxuduğuma görə Artek yay pioner düşərgəsinə göndərilmişdim. Orada bizi tarixi yerlərə ekskursiyaya aparırdılar. Belə ekskursiyalardan biri də Belarusun Xatın kəndinə olmuşdu. O kənddən məyusluqla ayrılmışdım. O zaman insanların necə bu qədər qəddar ola biləcəyini düşüncəmdə belə canlandıra bilməmişdim. İllər sonra xalqımızın başına açılan Xocalı faciəsinin dəhşətlərinin şahidi olanda Xatını xatırladım. Bu soyqırımı haqqında tam məlumatlı olmaq üçün onun canlı şahidlərinin xatirələrini daim diqqətlə izləyirəm. Düşünürəm ki, bunu hər bir azərbaycanlı bilməlidir. Çox istərdim ki, gələcəkdə Xocalıda Böyük Vətən müharibəsində Leninqradın mühasirədə olmasını özündə əks etdirən bir muzey kimi muzey qurulsun. Belə bir muzeyin yaradılması tarixi həqiqətlərin gənclərimizə və dünya ictimaiyyətinə çatdırılmasında çox mühüm rol oynayardı.

**- Aprel döyüşləri Azərbaycan Ordusunun qalib ordu olacağına, torpaqlarımızı işğaldan azad edəcəyinə əminlik döyüşləri idi. Siz bu haqda nə düşünürsünüz?**

- Bəli. Aprel döyüşləri Böyük qələbənin müjdəçisi idi.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev Aprel döyüşləri haqqında dediyi kəlamları hər kəs yaxşı xatırlayır. "Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan Bayrağı dalğalanır. Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun, bərpa edəcəkdir".

**- Aprel döyüşləri bütün dünyaya Azərbaycan Ordusunun gücünü, qələbə əzmini, ədalətin bərpa olunacağını göstərdi. Ordumuz bir gecədə düşmənin yalançı məğlubedilməzlik pərdəsini puç etdi. Xalqımız öz ordusu, qorxubilməz oğulları ilə qürur duydu.**

- Bütün dünya Azərbaycan dövlətinin, dövlətçiliyinin, Azərbaycan əsgərinin gücünü, qüdrətini gördü. Bu döyüşlər sübut etdi ki, Azərbaycan Ordusu düşmənin istənilən təxribatlarına layiqli cavab vermək, torpaqlarımızı işğaldan azad etmək gücündədi. Aprel döyüşləri Azərbaycan Ordusu ilə düşmən ordusu arasındakı güc fərqini, Azərbaycan Ordusunun peşəkarlığını və yüksək döyüş hazırlığını da təsdiqlədi.

2016-cı ilin Aprel döyüşlərində şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığı ilə yanaşı, hərbi səhiyyənin səviyyəsinin yüksək olduğunun şahidi olduq. Biz göstərdik ki, Azərbaycanın hərbi səhiyyəsi nəinki bölgədə, dünya miqyasında ən güclü səhiyyələr sırasındadır. Bu döyüşlər təsdiqlədi ki, Azərbaycanın hərbi səhiyyəsi itkilərin qarşısını maksimum səviyyədə almağa qadirdir.

**- Siz də Aprel döyüşlərinin iştirakçısı olmusunuz. Hərbi həkim olaraq fəaliyyətiniz barəsində nə deyə bilərsiniz.**

- İstər hərbçi, istərsə də həkimlik taleyimdən razıyam ki, o döyüşənlərin sırasında oldum, yaralananlara yardım göstərdim. Döyüş meydanında yaralıya göstərilən yüksək keyfiyyətli ilk yardım nəticəsində itkilərimiz minimum səviyyədə oldu. Güllələr altında, döyüşün getdiyi şəraitdə yaralıya ilk tibbi yardımın göstərilməsi, şok əleyhinə tədbirlərin aparılması, qanaxmanın dayandırılması, onların döyüş bölgəsindən çıxarılması və təxliyyəyə hazırlanmasında hər bir tibb işçisinin zəhməti, əziyyəti çox yüksəkdir.

Aprel döyüşləri zamanı yaralanmış bir qrup əsgər və zabitlə görüşən Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva həkimlər haqqında dediyi "Aprel hadisələri zamanı və ondan sonrakı günlərdə Prezident və mən hospitallarda, xəstəxanalarda olduq. O zaman yaralanmış, xəsarət almış əsgərlərimizə yardım göstərən, onların tezliklə sağalması üçün əllərindən gələni edən tibb işçilərimizə minnətdarlığımı çatdırmaq istəyirəm. Yaralanmış əsgərlərin demək olar ki, əksəriyyəti onların səyləri və əməyi nəticəsində sağalıb və normal həyat tərzinə qayıdıb və bu gün də Vətəni tam gücləri ilə qorumaq üçün hazırdırlar" fikirlər qürurvericidir.

**- Hər iki döyüşlərin iştirakçısı olmusunuz. Aprel döyüşləri qələbələrimizin başlanğıcı idi. Bu qələbələri Vətən müharibəsində qazanılan Zəfər tamamladı.**

- Zəfər ruhumuzun Zəfəri oldu. Vətən müharibəsində Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin sərkərdəliyi ilə rəşadətli ordumuz illərdir işğal altında olan torpaqlarımızı 44 gün ərzində erməni işğalçılarından təmizlədi. Xalqımız Ali Baş Komandanının, dövlətinin ətrafında sıx birləşdi və bu birlik, həmrəylik "Dəmir yumruğa" çevrildi, ərazi bütövlüyümüz və suverenliyimiz bərpa edildi. Bu tarixi Zəfərlə Azərbaycan Ermənistanın 30 ilə yaxın işğalına son qoydu, dünyada qalib xalq, məğlubedilməz dövlət kimi özünü təsdiqlədi.

Vətən müharibəsi xalqın müharibəsi idi. Bu müharibədə hamı iştirak edirdi. Vətən müharibəsi hamını əsgərləşdirmişdi. Əli silah tutanların hamısı döyüşlərə getmək istəyirdi. Bütün bunlar yüksək döyüş əzminə, qələbə ruhuna malik olan ordunun mənəvi gücünü də yüksəldirdi.

**- Bildiyimiz kimi, yaraları nisbətən yüngül olan döyüşçülər döyüşlərə tez qayıtmaq istəyirdilər. Hərbi həkim kimi onlara nə məsləhət görürdünüz?**

- Məndən neçə döyüşçü belə xahiş etmişdi. Bir neçəsinin xahişini yerinə yetirmək imkanı oldu. Bu, ordunun döyüş əzminin, qələbə ruhunun göstəricisi idi.

44 günlük Vətən müharibəsi Azərbaycan dövlətinin, dövlətçiliyinin, Azərbaycan əsgərinin gücünü, Ali Baş Komandanın sərkərdəlik qüdrətini göstərdi.

Bu müharibə Azərbaycan Ordusunun tibbi təminatının yüksək səviyyədə olduğunu da, Azərbaycan həkiminin fədakarlığını da təsdiqlədi. Vətən müharibəsində Tibb İdarəsinin rəhbərliyi idarənin fəaliyyətini tibbi təminatın, tibb xidmətinin qüvvə və vasitələrinin təşkilati quruluşu və müharibə zamanı onların tətbiqi üsullarını hərbi təbabətin iştirakını müəyyən edən qanunauyğunluğa əsasən təşkil etmişdi. Ali Baş Komandanın əmrinə uyğun olaraq sentyabrın 27-də ön xəttə ezam olundum. Müharibədə, döyüşdə yaralanmalar danılmazdır. Vətən müharibəsi zamanı da Aprel döyüşlərində olduğu kimi, ağır əməliyyatlar həyata keçirir, yaralıların qısa müddətdə müalicə olunub sağlamlıqlarına qovuşmaları üçün əlimizdən gələni əsirgəmirdik. 24 saat xidmətdəydik.

**- Döyüşçülərin döyüşü düşmənlədir, tibb işçilərinin döyüşü düşmənin açdığı yaralarla. Sizlər yaralara məlhəm, Azərbaycan əsgərinə ümid oldunuz. Hərbi həkimlərin fəaliyyəti barədə fikirləriniz.**

- Hərbi həkimlərin fəaliyyəti həm Aprel döyüşlərində, həm də 44 günlük Vətən müharibəsində daha həssas idi. Ağır döyüşlərin getdiyi o günlərdə əsgərlərimizin sağlamlığı üçün əlimizdən gələni əsirgəmədik. Bu da bizim - tibb işçilərinin döyüşü idi desək, heç də yanılmarıq.

Vətən müharibəsindən sonra Prezident İlham Əliyevin görüşlərin birində qeyd etdiyi kimi: "Şəhidlərimizin sayının o qədər də çox olmamasının səbəblərindən biri də məhz həkimlərdir. Bu gün dediyiniz sözlərə qüvvət, müharibə zamanı fədakarlıq göstərmiş həkimlərin də fəaliyyətini biz gərək qeyd edək. Doğrudan da, həkimlər gecə-gündüz yorulmadan, o ağır şəraitdə, çətin şəraitdə öz həyatını risk altına ataraq yaralılara qulluq edirdilər".

Hərbi qulluqçuların sağlamlığının qorunması üçün qarşıya qoyulan vəzifələrin yüksək peşəkarlıq və keyfiyyətlə yerinə yetirilməsi üçün bütün imkanlardan lazımınca istifadə etdik. Vətən torpağını qorumaq müqəddəs və şərəfli olduğu kimi, onun müdafiəçisinin sağlamlığı keşiyində dayanmaq da şərəflidir.

**- Müsahibəyə görə çox sağ olun.**

**Müsahibəni apardı:**
**Baş leytenant**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Azad edilmiş ərazilərdə mühəndis təminatı üzrə tədbirlər davam etdirilir

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin komandanlığı altında Azərbaycan Ordusunun qələbəsi ilə başa çatan Vətən müharibəsi nəticəsində azad edilmiş ərazilərimizdə mühəndis işləri davam etdirilir.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Azərbaycan Ordusunun Mühəndis Qoşunlarının hissə və bölmələri tərəfindən nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətini təmin etmək məqsədilə yollar minalardan və qar örtüyündən təmizlənir, həmçinin dağlıq və çətin keçilən ərazilərdə yerləşən bölmələrimizin mövqelərinə yeni təminat yolları çəkilir.

Azad edilmiş ərazilərimizdə mühəndis-istehkam bölmələrinin fəaliyyəti nəticəsində mart ayı ərzində 203 hektar ərazi mina və partlamamış döyüş sursatlarından tam təmizlənib.

İşğaldan azad edilmiş ərazilərdə bu günədək mühəndis-istehkam bölmələri tərəfindən 14600 hektaradək ərazi minalardan təmizlənib. Ümumilikdə 6000 ədəddən artıq piyada əleyhinə, 2100 ədəddən artıq tank əleyhinə və 9300 ədəddən artıq partlamamış döyüş sursatı aşkarlanaraq məhv edilib.

Mina təmizləmə işlərində əsas səylər azad olunan ərazilərdə yaşayış məntəqələri, əkin sahələri, yollar və infrastruktur obyektlərinə yönəldilib.

Azad edilən ərazilərimizdə minaların və partlamamış döyüş sursatlarının aşkarlanaraq zərərsizləşdirilməsi, eləcə də mühəndis təminatı üzrə digər zəruri tədbirlər davam etdirilir.





## Hərbi texnikalar, silahlar

# "Starstreak" daşınan zenit-raket kompleksi







Britaniyanın "Thales Air Defence Ltd" (keçmiş Shorts Missile Systems") şirkəti tərəfindən istehsal olunan "Starstreak" (ulduz yolu) daşınan zenit-raket kompleksləri qısa mənzilli hava hücumundan müdafiə sistemidir. Bu portativ (rahat daşınan) zenit-raket sistemi dünyanın ən sürətli qısa mənzilli yer-hava tipli raketi hesab olunur. İstehsalçı tərəfindən çoxməqsədli kompleks kimi istifadəyə verilən "Starstreak" 1980-ci illərin ortalarında hazırlanmağa başlanılıb və 1997-ci ildə Britaniya ordusunun silahlanmasına qəbul olunub.

"Starstreak" aşağı hündürlükdə uçan hava hədəflərini, helikopterləri və təyyarələri məhv etmək üçün nəzərdə tutulub. Hava hücumundan müdafiə sistemi 5 km-ə qədər yüksəklikdə uçan hava hədəflərini vura bilir.

Öz sinfinin digər məhsulları kimi bu raket də kompleksin digər elementləri ilə birləşdirilmiş nəqliyyat və buraxılış konteynerində birgə təqdim edilir. "Starstreak" zenit-raketinin əsas elementi HVM (High Velocity Missile - yüksəksürətli raket) idarə olunan raketdir. "Starstreak" HVM raketi digər zenit silahlarından çox fərqlidir. Belə ki, raketə ənənəvi yüksək partlayıcılı döyüş başlığının əvəzinə, üç müstəqil döyüş bölməsindən ibarət orijinal bir başlıq quraşdırılıb. Raketin başlığına üç oxşəkilli sursat bərkidilib. Onlar öz yönləndirmə sistemləri və yüksək partlayıcılı döyüş başlıqları ilə təchiz olunub. Döyüş hissəsində üç subelementin (oxşəkilli sursat - hər biri ayrı-ayrılıqda qəlpəli döyüş hissəsinə malikdir) istifadə olunması hədəfin uğurla məhv edilməsi ehtimalını daha da artırır. Belə ki, raket atıldıqdan sonra onun döyüş hissəsi üç subdöyüş sursatına ayrılır. Ayrılmış hər bir döyüş hissəsi "lazer cığırı" adlanan prinsip üzrə hədəfə tuşlanır. Onların yönləndirmə sistemləri işə düşərək hədəfi tapır və ona yönəlir. Düşmən təyyarəsinə və ya helikopterinə dəyən oxşəkilli sursat onun metal örtüyünü deşərək daxili hissələrə ziyan vurur, sonra isə partlayaraq zərəri artırır.

Raketin taktiki-texniki göstəricilərinə gəldikdə - çəkisi 14 kq, uzunluğu 1,39 m, gövdəsinin diametri 0,13 m, qanad genişliyi 0,27 m, effektiv atəş məsafəsi 0,3-7 km-dir. Hündürlükdə hədəfi məhvetmə məsafəsi 5000 m, uçuş vaxtı 8 san, fəaliyyət məsafəsi 1500-5500 (6000 metrə qədər) metrdir. Subelementin (oxşəkilli sursatın) çəkisi isə 0.9 kiloqramdır.

**Hazırladı:**
**Könül CƏFƏRZADƏ**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## İraqda ABŞ hərbçilərinə məxsus avtomobil karvanı silahlı hücuma məruz qalıb



ABŞ-ın İraqdakı hərbi hissəsinə məxsus avtomobil karvanı növbəti dəfə silahlı hücuma məruz qalıb.

"Əl-Youm" agentliyinə istinadla xəbər verir ki, Babil rayonu ərazisindən keçən maşın karvanı qumbaraatanlar və avtomatlarla atəşə tutulub. İtkilər barəsində hələlik məlumat yoxdur.

İraq mətbuatı bildirir ki, son aylar ərzində ABŞ-ın hərbi bazalarına hər gün, bəzən isə gün ərzində 2 dəfə silahlı basqınlar olur. Əhali ABŞ hərbçilərinin ölkəni tərk etməsini tələb edir. Hətta 2020-ci ildə İraq parlamenti bu barədə qanun da qəbul edib. Qanuna görə, İraq ərazisində heç bir xarici dövlətin hərbi bazası fəaliyyət göstərə bilməz. Buna baxmayaraq, ABŞ hərbçiləri hələ də İraqda xidmət aparırlar. Bu məsələ İraq və ABŞ prezidentləri arasında dəfələrlə müzakirə edilib. Lakin, hələlik, nəticə yoxdur.

## Ukraynanın Odessa və Nikolayev şəhərləri raket hücumuna məruz qalıb



Aprelin 4-də səhər saatlarında Ukraynanın Odessa şəhəri raket hücumuna məruz qalıb.

Odessa Vilayət Hərbi Administrasiyasının Operativ Qərargahının spikeri Sergey Bratçukun sözlərinə görə, Rusiya ordusu Odessadakı obyektlərdən birinə raket zərbəsi endirib.

Sergey Bratçuk qeyd edib ki, Rusiya raketlərinin vurduğu yerlərlə bağlı fotoşəkillər və digər təfərrüatlar dərc edilməməlidir. Qeyd edək ki, Odessanın raketlə vurulan məkanını çəkən niderlandlı jurnalist Ukrayna Təhlükəsizlik Xidmətinin əməkdaşları tərəfindən aşkarlanaraq onun 10 il müddətinə Ukraynaya girişinə qadağa qoyulub.

## Ukraynada mülki şəxslərin 7 humanitar dəhlizlə təxliyəsi razılaşdırılıb



Aprelin 5-də mülki şəxslərin təxliyəsi üçün Ukraynada 7 humanitar dəhliz açılıb.

Bu barədə Ukrayna Baş nazirinin müavini İrina Vereşçuk videomüraciətində bildirib.

O deyib ki, aprelin 5-də Mariupol, Berdyansk, Manquş, Tokmak və Luqansk vilayətinin şəhərlərindən humanitar dəhliz də həyata keçiriləcək.

## CNN: ABŞ hipersəs raketinin gizli sınağını keçirib



ABŞ mart ayının ortalarında hipersəs raketinin uğurlu sınağını keçirib, lakin Rusiya ilə gərginliyi artırmamaq üçün bu barədə məlumat yaymayıb.

CNN telekanalına istinadla xəbər verir ki, sınaqlar ABŞ Prezidenti Cozef Baydenin Avropaya səfərinə hazırlıq zamanı baş tutub.

Məlumata görə, söhbət "Lockheed Martin" kompaniyasının Hypersonic Air-breathing Weapon Concept (HAWC) konsepsiyasının raketindən gedir. Strateji B-52 bombardmançı təyyarəsindən atılan raket 19 kilometr yüksəkliyə qalxaraq 480 kilometr məsafə qət edib. HAWC konsepsiyasının hipersəs raketi döyüş başlığı daşımır və hədəfi məhv etmək üçün yalnız kinetik enerjidən istifadə edir.

Aprel ayının əvvəlində ABŞ Ukrayna ətrafında yaranan vəziyyət fonunda yanlış şərhlərdən yayınmaq üçün "Minuteman-III" qitələrarası ballistik raketinin əvvəllər təxirə salınan sınağını da ləğv etmişdi.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycan Ordusunun hərbi qulluqçuları Türkiyədə "Efes-2022" təlimlərində iştirak edirlər

*Azərbaycan Tapşırıq Qrupu Komandanlığının koordinasiyası ilə "Efes-2022" təlimində iştirak edəcək Azərbaycan Ordusunun şəxsi heyəti ilə "Gəmiyə minmə, yaşayış massivlərində döyüş, kəndirdən sürüşmə və sahilə hücum üzrə təlimlər" keçirilib.*

AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyindən bildirilib.

Qeyd edək ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan Ordusunda şəxsi heyətin peşəkarlıq səviyyəsinin artırılması istiqamətində görülən işlər davam etdirilir. Bu çərçivədə Azərbaycan Ordusunun hərbi qulluqçuları Türkiyə Respublikasının İzmir şəhərində keçirilən "Efes-2022" beynəlxalq təlimində iştirak edirlər.



# MOİK-in zabiti Rafiq Hüseynov üçqat Avropa çempionu olub

*Azərbaycanın yunan-Roma güləşçisi Rafiq Hüseynov Budapeştdə keçirilən Avropa çempionatında qızıl medal qazanıb.*



Çempionatda 82 kiloqram çəki dərəcəsində çıxış edən R.Hüseynov startda çexiyalı Petr Novakı 5:1 hesabı ilə üstələyib. R.Hüseynov dördəbir finalda macar Tamaş Levayla qarşılaşıb. Görüşün taleyini təcrübəli pəhləvanımızın ilk hissədə etdiyi uğurlu fənd müəyyənləşdirib - 2:0. Təmsilçimiz final yolunda moldovalı Mixail Braduya da gücünü göstərib - 2:0.

Beləliklə, titullu güləşçimiz üçüncü dəfə Avropa çempionatının finalına yüksəlib. R.Hüseynovun həlledici görüşdə rəqibi gürcü Gela Bolkvadze olub. Rəqibinə 2:1 hesabı ilə qalib gələn R.Hüseynov üçqat Avropa çempionu olub.

Güləşçimiz 2011-ci ildə Almaniyada və 2020-ci ildə İtaliyada keçirilən Avropa çempionatlarında da birinci olub. Təmsilçimiz 2018-ci ildə Rusiyada təşkil olunan qitə birinciliyini üçüncü pillədə başa vurub. R.Hüseynov ötən il Norveçdə keçirilən dünya çempionatında fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Bununla da, o, yunan-Roma güləşində üçqat Avropa çempionu olan ilk idmançımız kimi tarixə düşüb. Güləşçinin hesabında qitə birinciliyinin bürünc medalı da var. R.Hüseynov 2018-ci ildə Kaspiyskdə üçüncü olub.

Oxucuların diqqətinə onu da çatdıraq ki, üçqat Avropa çempionu Rafiq Hüseynov Müdafiə Nazirliyinin Mərkəzi Ordu İdman klubunun zabitidir. Baş leytenant Rafiq Hüseynov 2016-cı ildən Ordu İdman klubunun idman şərəfini qoruyur. Bacarıqlı güləşçimiz 2021-ci ildə Yaponiyada keçirilən yay olimpiadasında bürünc, 2021-ci ildə Oslo şəhərində keçirilən dünya çempionatında qızıl medal qazanmışdı. Bundan əlavə, Rafiq Hüseynov hərbçilər arasında keçirilən çempionatların və olimpiadaların mükafatçısıdır. İnanırıq ki, baş leytenant Rafiq Hüseynov yeni-yeni uğurları ilə bizi sevindirəcəkdir.

Budapeştdə keçirilən Avropa çempionatında, həmçinin Müdafiə Nazirliyi Ordu İdman Klubunun mülki idmançısı Əşrəf Aşırov sərbəst güləş üzrə yarışda gümüş medal qazanıb.

Xatırladaq ki, sərbəst güləşçimiz Əşrəf Aşırov 2021-ci ildə Oslo şəhərində keçirilən dünya çempionatında gümüş, 2021-ci ildə Rusiyada keçirilən MDB oyunlarında qızıl medal qazanıb.

**"Azərbaycan Ordusu"**

# Hərbi qulluqçular arasında hərbiləşdirilmiş kross birinciliyi keçirilib





Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Quru Qoşunlarının 2022-ci il hazırlıq planına uyğun olaraq hərbi qulluqçular arasında hərbiləşdirilmiş kross birinciliyi keçirilib.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin və ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.





Qoşun növlərini və birləşmələri təmsil edən 12 komanda birincilik uğrunda mübarizə aparıb.

Hərbi qulluqçular atış, qumbaraatma və kross qaçışı üzrə yarışlarda güclərini sınayıblar.

Yekun nəticələrə əsasən "Kəlbəcər", "Bərdə" və "Beyləqan" komandaları müvafiq olaraq birinci, ikinci və üçüncü yerlərdə qərarlaşıblar.

Sonda qaliblər diplom, fəxri fərman və medallarla mükafatlandırılıblar.

# İdman

## Yunan-Roma güləşi üzrə Azərbaycan millisi Avropa çempionu olub



Macarıstanın paytaxtı Budapeştdə keçirilən güləş üzrə Avropa çempionatına yekun vurulub.

Yunan-Roma güləşi üzrə Azərbaycan millisi qitə birinciliyində tarixi uğura imza atıb. Baş məşqçi Aleksandr Tarakanov, böyük məşqçi Rövşən Bayramov və məşqçi Həsən Əliyevin rəhbərliyi altında 10 güləşçi ilə yarışda təmsil olunan komandamızın 8 üzvü fəxri kürsüyə qalxıb. Eldəniz Əzizli (55 kq), Rafiq Hüseynov (82 kq) qızıl, Taleh Məmmədov (63 kq) gümüş, Murad Məmmədov (60 kq), Həsrət Cəfərov (67 kq), Ülvü Qənizadə (72 kq), Sənan Süleymanov (77 kq) və İslam Abbasov (87 kq) bürünc medal qazanıblar. Onlar komandaya müvafiq olaraq 25, 20 və 15 xal qazandırıblar. Beşinci yeri tutan Murat Lokyayev (97 kq) və Beka Kandelaki (130 kq) isə 10 xalı millimizin xal ehtiyatına əlavə edibləb.

Beləliklə, yığmamız 165 xalla tarixində ilk dəfə komanda hesabında Avropa çempionu olub. Türkiyə 150 xalla ikinci, Gürcüstan isə 114 xalla üçüncü yeri tutublar. Həm medalların sayına, həm əyarına, həm də toplanan xallara görə Azərbaycan yunan-Roma güləşi tarixində yeni rekorda imza atıb.

## Eldəniz Əzizli Azərbaycan yunan-Roma güləşi tarixində medalların sayına görə rekorda imza atıb



Eldəniz Əzizli Macarıstanda Avropa çempionu olmaqla Azərbaycan yunan-Roma güləşi tarixində rekorda imza atıb.

Çempionatda 55 kiloqram çəki dərəcəsində çıxış edən pəhləvanımız yunan-Roma güləşi növündə böyüklər arasında ən çox Avropa çempionatı medalı olan idmançımızdır.

E.Əzizlinin hesabında 6 qitə birinciliyinin medalı var. Güləşçi 2018-ci ildə Kaspiyskdə və 2022-ci ildə Budapeştdə qitənin ən güclüsü adını qazanıb, 2011-ci ildə Dortmundda, 2019-cu ildə Buxarestdə, 2020-ci ildə Romada və 2021-ci ildə Varşavada fəxri kürsünün üçüncü pilləsinə yüksəlib.

## Cüdoçumuz Elmar Qasımov "Böyük dəbilqə" turnirində bürünc medal qazanıb



Antalyada keçirilən "Böyük dəbilqə" turnirində cüdoçumuz Elmar Qasımov bürünc medal qazanıb.

100 kiloqram çəki dərəcəsində mübarizə aparan təmsilçimiz bürünc medal uğrunda qarşılaşmada Kyle Reyesi (Kanada) məğlub edib.

Qeyd edək ki, Azərbaycan turnirdə 17 idmançı ilə təmsil olunub.

## Dünyanın ən yaxşı gənc futbolçularının siyahısı açıqlanıb

Dünyanın ən yaxşı gənc futbolçularının siyahısı açıqlanıb. Beynəlxalq İdman Araşdırmalar Mərkəzi (CIES) yaşı 21-dək olan 100 ən yaxşı oyunçunu müəyyənləşdirib.

Cədvələ "Arsenal"ın üzvü Bukayo Saka başçılıq edir. İkinci sırada "Mançester Yunayted"in gənc istedadı Meyson Qrinvud qərarlaşıb. İlk üçlüyü "Arminiya"nın oyunçusu Patrik Vimmer qapayır.

Qeyd edək ki, cədvələ 2001-ci il martın 24-dən sonra anadan olan futbolçular daxil edilib.

**AZƏRTAC-ın materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Abbasova Yaqut Yaqub qızına məxsus AD № 0034564 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Baş redaktorun müavini kapitan Məhəmməd NƏSİRLİ

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

Növbətçi
Hüsniyyə İDRİSOVA

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 419
Nüsxə 4673